4. Cabarova, M.A. (2022). Abdulla bəy Asinin lirikası / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Sumqayıt, – 28 s.

5. Əhmədova, S.N. (2021). Məcməüş-şüəra üzvlərinin yaradıcılığında dini motivlər // – Bakı: “Dövlət və din” – №4 (71), – s.69-75.

6. Əhmədova, S.N. (2023). Ağadadaş Müniri və “Məcməüş-şüəra” ədəbi məclisi // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı. – №1, – s.40-46.

7. Əhmədova, S.N. (2024). Məcməüş-şüəra ədəbi məclisi və XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində Bakı ədəbi mühiti (əlyazma qaynaqları əsasında) / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, – 52 s.

8. Əliyeva, N. (2016). Haşım Bəy Saqib və onun yaradıcılığında ictimai-siyasi motivlər // – Bakı: Risalə. Araşdırmalar toplusu, 12-ci kitab. – s.117-130.

9. Həbibbəyli, İ. (2017). Maarifçilik və realizm. Dövrləşmə konsepsiyası və inkişaf mərhələsi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası. – №1, – s.3-10.

10. Quliyev, T. (2022). Anadilli əruzvəznli şeirimizin poetik inkişaf yolu // Ədəbiyyat qəzeti. – 3 sentyabr. – s.24-27.

11. Füzuli, M. (2005). Əsərləri. 6 cilddə. / M.Füzuli. – Bakı: “Şərq-Qərb” – c.1. – 400 s.

12. Məmmədov, A.G. Füzulinin qəzəllərində “Quran” motivləri (Elektron resurs) https://gmworldbook.com/wp-content/uploads/2024/02/8774a-fuzulinin-qezellerinde-e2809cqurane2809d-motivleri.pdf

13. “Təzkireyi-Yusif”(2016). / tərt.ed. S.Xəyal. – Bakı: “Ecoprint” – 70 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* *24.02.2026*
*Qəbul edilib* *01.03.2026*
*Nəşrə tövsiyə edib* *Muxtar İmanov*
*filologiya elmləri doktoru, professor*

*https://doi.org/10.30546/114578.2026.3015.249*

# LƏNKƏRAN ƏDƏBİ MÜHİTİNDƏ MƏHƏMMƏD FÜZULİ ƏNƏNƏLƏRİNİN DAVAMI

**Nərmin Məmmədova**
*filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*ele.eliyev@gmail.com*

**Xülasə**

Məhəmməd Füzuli Lənkəran ədəbi məkanında həm formal, həm ideya-estetik baxımdan uzunmüddətli təsir qoymuşdur. Regionun qəzəl ənənəsi, sufizmə meyl və klassik poetik obrazlılıq Lənkəran şairlərinin yaradıcılığında Füzuli ruhunun davamı kimi görünür. Lənkəran qəzəl məktəbinin əsas xüsusiyyətləri − ilahi-eşq motivi, məhəbbət-sufizm sintezi, qəzəldə metaforik zənginlik və dilin yüksək poetikliyi Füzulinin yaradıcılıq kodları ilə sıx bağlıdır. Region şairləri bəzən adi dünyəvi eşqdən daha çox ilahi eşqi tərənnüm edir və qəzəl janrı burada prioritet pilləyə çıxır. Füzuli ənənələri Lənkəran ədəbi mühitinin estetik gerçəkliyində həm tarixi kök, həm də canlı praktikaya malik bir elementdir. Regionun ədəbi fəaliyyəti bu ənənəni qoruyur və yenidən interpretasiya edir.

Lənkəran ədəbi mühitində Füzuli ənənələrinin davamı klassik Şərq poeziyasına bağlılıq, xüsusilə də humanist düşüncə, dərin lirizm və fəlsəfi məzmunla səciyyələnir. Bu mühitin nümayəndələri Füzulinin eşq, dərd, insanın daxili aləmi və ilahi həqiqət axtarışı kimi mövzularını qoruyaraq, onları yerli ictimai-mənəvi mühitin xüsusiyyətləri ilə zənginləşdirmişlər. Qəzəl janrının inkişafı, sözün semantik dərinliyinə xüsusi diqqət və obrazlı ifadə tərzi Füzuli poetikasının əsas cizgiləri kimi Lənkəran ədəbi mühitində yaşadılmışdır. Beləliklə, Füzuli ənənələri bu bölgədə yalnız təkrar deyil, yaradıcı şəkildə mənimsənilərək regional ədəbi kimliyin formalaşmasına mühüm təsir göstərmişdir.

**Açar sözlər:** Lənkəran ədəbi mühiti, XIX əsr, Füzuli, klassik irs, qəzəl.

# THE CONTINUATION OF MUHAMMAD FUZULI'S TRADITIONS IN THE LITERARY ENVIRONMENT OF LANKARAN

**Narmin Mammadova**
*ANAS İnstitute*

**Abstract**

Muhammad Fuzuli exerted a long-lasting influence on the literary milieu of Lankaran, both in formal-structural terms and in its ideological and aesthetic dimensions. The region's ghazal tradition, its inclination toward Sufism, and its reliance on classical poetic imagery in the works of Lankaran poets may be regarded as a continuation of Fuzuli's poetic spirit. The defining features of the Lankaran ghazal school − such as the motif of divine love, the synthesis of love poetry and Sufi thought, rich metaphorical expression, and a highly refined poetic language − are closely connected with Fuzuli's creative codes. In the works of regional poets, divine love is often foregrounded over worldly love, which elevates the ghazal genre to a position of particular prominence.Within the aesthetic reality of Lankaran's literary environment, Fuzuli's traditions function both as a historical foundation and as a living creative practice. The region's literary activity preserves this heritage while simultaneously reinterpreting and revitalizing it in new artistic forms.

The continuation of the traditions of Muhammad Fuzuli within the literary environment of Lankaran is characterized by a strong adherence to classical Eastern poetry, particularly distinguished by humanistic thought, profound lyricism, and rich philosophical content. The representatives of this milieu preserved Fuzuli's themes − such as love, suffering, the inner world of the human being, and the quest for divine truth − while enriching them with the specific features of the local socio-spiritual environment. The development of the ghazal genre, special attention to the semantic depth of the word, and a figurative mode of expression were sustained as the principal features of Fuzuli's poetics within the Lankaran literary environment. Thus, Fuzuli's traditions in this region were not merely replicated, but creatively assimilated, exerting a significant influence on the formation of a distinct regional literary identity.

**Key words:** literary environment of Lankaran, nineteenth century, Fuzuli, classical heritage, ghazal.

## ПРЕЕМСТВЕННОСТЬ ТРАДИЦИЙ МУХАММЕДА ФИЗУЛИ В ЛИТЕРАТУРНОЙ СРЕДЕ ЛЕНКОРАНЬ

**Нармин Мамедова**
*НАНА Институт Фольклора*

**Резюме**

Творческое наследие Мухаммеда Физули оказало в литературном пространстве Ленкорани продолжительное и многоаспектное влияние как в формально-жанровом, так и в идейно-эстетическом плане. Газельная традиция региона, тяготение к суфийскому мировосприятию и использование классической поэтической образности в творчестве ленкоранских поэтов проявляются как органичное продолжение художественного духа Физули.

Основные особенности ленкоранской школы газели − мотив божественной любви, синтез любовной и суфийской тематики, метафорическая насыщенность поэтической речи и высокий уровень поэтического языка − тесно связаны с поэтическими кодами Физули. В произведениях региональных авторов преобладает не столько изображение земной любви, сколько осмысление любви как духовной и трансцендентной категории, вследствие чего жанр газели занимает приоритетное место.

Традиции Физули в эстетической реальности ленкоранской литературной среды выступают одновременно как историческое основание и как живая творческая практика. Литературная деятельность региона сохраняет данное наследие, одновременно переосмысливая и актуализируя его в новых художественных формах.

**Ключевые слова:** газель, XIX век, Физули, литературная среда Ленкорани, классическое наследие.

## Giriş/ İntroduction

XIX əsrin sonları XX əsrin əvvəllərində Azərbaycan ədəbi mühiti zəngin ənənələrə əsaslanırdı. Bu dövrdə fəaliyyət göstərən ədəbi məclislər demək olar ki, klassik poeziya irsinin qorunub saxlanılmasında və inkişafında mühüm rol oynamışdır. Bu ədəbi məclislərin üzvləri klassik şairlərin, xüsusilə də Füzuli kimi sənətkarların poetik ənənələrini dərindən mənimsəmiş. Onları yeni ictimai və bədii məzmunla zənginləşdirməyə çalışmışlar.

Ədəbi məclislərdə klassik poeziya, əsasən, mənəvi kamillik , məhəbbət, vəfa, ədalət və insanlıq kimi dəyərlərin daşıyıcısı kimi qiymətləndirilirdi. Bu baxımdan Füzuli yaradıcılığı məclis üzvləri üçün bir poetik məktəb idi. Onun qəzəl janrında yaratdığı bədii estetik dəyərlər, məcaz sisteminin dərinliyi və lirizminin qüdrəti yeni nəsil şairlə üçün ilham mənbəyi olmuşdur.

Məhəmməd Füzulinin Yaxın Şərq ədəbiyyatına təsiri “Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatı” kitabında belə vurğulanır: “*XVI əsr Azərbaycan ədəbiyyatının mühüm xüsusiyyəti sənətkarlığın güclənməsi, sözün zərgər dəqiqliyi ilə cilalanması, zəngin, çoxcəhətli obrazların meydana çıxmasıdır. Həbibi və Hamidi kimi sənətkarların yaradıcılığında artıq zirvəyə çatır. Füzuli əsrin birinci yarısında Azərbaycan dilində yaranan poeziyanı Şərq və dünya şeirinin ən yüksək poetik əsərləri səviyyəsinə çatdırır. Azərbaycan poeziyası məzmun və forma cəhətdən yeni bir əlçatmazlıq qazanır. Füzuli irsi Azərbaycanda İntibahın ən yüksək ifadəsi oldu. Həm də təkcə Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərqdə bu dövrün intibahının ən yüksək təzahürü, zirvəsi kimi meydana çıxdı. Bu dövrdə Ərəbistanda, İranda, Özbəkistanda, hətta Türkiyədə Füzuli səviyyəsində dayana biləcək sənətkara rast gəlmirik. Halbuki Türkiyənin siyasi-ictimai həyatındakı müvəffəqiyyətləri nəticəsində burada intibah ziyalıları – alimlər, şairlər, səyyahlar və memarlar hələ çox idi. Füzuli üç dildə yüksək poetik əsərlər yaratmaq, qələmini bütün janrlarda sınamaq, şeirdə, nəsrdə, epik və lirik janrlarda, alleqorik formalarda zəngin bir irs yaratmışdır. Fəlsəfi məsələlərdən bəhs edən ayrıca əsər yazmaqla bərabər bir sıra tibbi və pedoqoji fikirlərini ifadə etmək üçün ədəbi piryomlardan istifadə etmiş, habelə ən yaxşı tərcüməçi olmuşdur. İntibah ziyalısı kimi əsrinin hadisələrinə fəal müdaxilə etmək, humanizmə və tərəqqiyə çağırmaq onun bütün həyat və yaradıcılığının əsas keyfiyyəti olmuşdur. Zaman Füzuli sənəti ilə ağlın harayını, gücünü, hissin yüksək qüdrətini ifadə etmişdir. Yaxın və Orta Şərqin böyük intibah mədəniyyətini dərindən öyrənən, tarixi inkişafın haraya getdiyini aydın görən, bir çox ölkələrdə intibahın artıq gerilədiyini duyan Füzuli narahat olur, dövranın nəzmi xar etmək, “biizzətü bietibar etmək” istədiyini başa düşürdü. Ona əlac etməyə, Azərbaycan dilində nəzmi-nazikin yeni gözəl nümunələrini yaratmağı qarşısına məqsəd qoyur və buna uğurla nail olur*” [Səfərli, 1982:205-206]

**Məhəmməd Füzuli yaradıcılığının təsir dairəsi.** Lənkəran ədəbi mühitində Füzulinin təsiri ilk növbədə qəzəl janrının inkişafına özünün göstərmişdir. Füzuli qəzəlləri yüksək lirizmi, dərin hiss və düşüncə vəhdəti ilə seçildiyindən, Lənkəran şairləri bu janrda yazmağı bədii ustalığın göstəricisi hesab etmişlər. Demək olar ki, Lənkəran ədəbi mühitində “Fövcül-füsəha” məclisinin bütün üzvlərinin yaradıcılığında Füzuli ənənələri, Füzuli ruhu duyulmaqdadır.

Məlumdur ki, Füzuli şeirlərində ilahiyyat, insan ruhunun kamilliyi, əxlaq və tasavvuf mövzuları geniş şəkildə işləmişdir. Bu mövzuları üç qrupa ayıra bilərik:

1. Peyğəmbər və Əhli-beyt motivləri
2. İnsan və əxlaq anlayışı
3. İlahi eşq və tasavvüf motivləri.

Sosializm dönəmində bir çox klassik yazarlarımıza atılan ateist çamur Füzulidən də yan keçməmişdir. Onun materialist düşüncəyə sahib olduğunu, İslam dininin cəhalət dini kimi təbliğ etdiyini vurğulamağa çalışan mövcud ideologiya bunu sübut edə bilməmişdir. Şairin Peyğəmbər və Əhli beyt motivli əsərləri mövcud söyləntiləri puç edən əsas faktlardan biridir. "Oldu" rədifli qəzəlində qələmə aldığı kimi:

*Belədir qaidə kim, fəthə çatar dünyadə,*
*Kim Əli dərgəhinə bəndeyi-fərman oldu.*

*Nəcəfin təxtinə sultan o Əlidir, çünki*
*Qapısında nökəri huriyü qılman oldu* [Füzuli, 2002:206].

Mövlanənin Peyğəmbər və Əhli beyt motivli şeirləri, eləcə də on dörd məsumə olan sevgisi aşağıdakı misralardan daha qabarıq hiss olunur:

*Əhli-halə bəllidir kim, bu şəfəq neyçündür al,*
*Çünki qəlbində onun bir zərrə var sevdayi-al.*

*Kimdə on dörd mə'sumun eşqi ola, kamil odur.*
*Gör ki, on dörd gecəlik ay da tapır bundan kamal*
[Füzuli, 2002:206].

Məhəmməd Füzulinin bu mövzuda yazdığı əsərlər Lənkəran şairlərinin də qaynaq mənbəyi olmuşdur. Nəzərə alsaq ki, bölgədə dini-fəlsəfi şeirlər geniş vüsət almışdır o zaman Füzulinin toxunduğu bu məqamlar ədiblərin yaradıcılığında işıqlanmaya bilməzdir. Xüsusilə füzulisayağı yazılan mərsiyələrdə bu məqamlara xüsusi diqqət ayrılmışdır:

*Xoş gəlibsiz şiələr sibti-Peyğəmbər yasinə,*
*Nuri-çeşmi – Fatimə, fərzəndi-Heydər yasinə* [Talışlı, 2007:105].

Nəccarın eyni motivlərdə yazmış olduğu bu mərsiyədə İmam Hüseyn müsibətindən söz açılaraq, eyni zamanda bölgənin ənənəvi bu mərasimlər zamanı təşkil olunan taziəyə gələnləri salamlaması da diqqətçəkəndir. Bu

məhərrəm ayında təşkil olunan mərasimlərə eyni zamanda bu mərasimlərdə iştirak edənlərə verilən dəyəri göstərir.

**Füzuli və əxlaq mövzusunda yaradılan nümunələr.** Füzulinin insan və əxlaq anlayışılarını əhatə edən şeirləri də bölgə ədiblərinin ilham mənbələrindən biri olmuşdur. Yaradıcılığından da məlumdur ki, Füzuli Şərq ədəbi-fəlsəfi düşüncəsinin ən parlaq nümayəndələrindən biri kimi insan problemini və əxlaqi dəyələri poeziyasının əsas ideya mərkəzinə çevirmişdir. Onun əsərlərində insanın mənəvi kamilliyi, eşq vasitəsilə saflaşması, nəfsin tərbiyəsi, ədalət, sədaqət, təvazö və mərhəmət kimi yüksək əxlaq keyfiyyətləri ardıcıl şəkildə işləmişdir. Füzulinin insan və əxlaq konsepsiyası həm İslam fəlsəfəsinə, həm də sufi-ürfanı düşüncəsinə istinad etdiyi üçün universaldır və bəşəri xarakter daşıyır.

Füzuli əxlaqi fərdi deyil, sosialdır.Füzulinin əxlaq anlayışı yalnız poetik deyil, tam bir mənəvi-fəlsəfi sistemdir. O, insanın davranışını, qəlbini, niyyətini, hisslərini və ictimai rolunu bütöv şəkildə təmizləyən bir dünyagörüşü yaradır. Füzuli üçün əxlaq – insanın həm özünə, həm cəmiyyətə, həm də Allaha qarşı məsuliyyətdir. Bu əxlaq sistemi bügünkü etik anlayışlardır. Bu əxlaq sistemi bugünkü etik anlayışlarla da üst-üstə düşür və öz aktuallığını qorumaqdadır.

*Hüsni-surət, surəti-halın digərgun olmadan.*
*Cəhd qıl kim, görməyə xurşidi-rüxsarin zəval*
*Nur feyzindən hilali-qədrin əfzun olmadanm* [Füzuli, 2002:360].

Füzulinin daxili gözəlliyi və əxlaqi ön planda tutan bu misralarında mənəvi saflığı itirməmək, əxlaqını dağılmağa qoymamaq, şəxsiyyətin nurunun heç vaxt sönməməsi təsvir olunub. Şair burada demək istəyir ki, insan daxili aləmini korlamadan, əxlaqını pərakəndə etmədən çalışmalıdır ki, mənəvi ucalığı heç vaxt tənəzzülə uğramasın. Bu, klassik ədəbiyyatın əsas ideyasıdır – xarici gözəllik ötəridir, daxili gözəllik davamlıdır. Füzuli yaradıcılığından ilhamlanan aşağıdakı misralarda isə Qasir deyir.

*Özqə vəchilə gərək düşməyə dildən-ağıza,*
*Düşəsüz əhsənü əxlaq ilə dildən-dilə siz* [Qasir, 2015:278].

Məhəmməd Füzulinin ilahi eşq və tasavvüf motivlərini ehtiva edən şeirləri bölgə ədəbi mühitində şairlərin ilham qaynaqlarından olmuşdur. Onun böyük ustalıqla qələmə aldığı və ilahi eşqi özündə əks etdirən:

*Ey deyən kim, şami-iqbalın nə üzdən tirədir?*